TRANSPARENCY INTERNATIONAL
AZERBAIJAN

**Sabit Bağırov**
**Səfərəliyeva Rəna**
**İntiqam Əliyev**
**Ənnağı Hacıbəyli**
**Rəşid Hacılı**

# KORRUPSİYA NƏDİR?

## *2-ci hissə. Moderatorun sullari*
## *fevral 2004*

### KOORRUPSİYA ANLAYIŞİ

**Korrupsiyanın növləri**

- Korrupsiya ilə rüşvət arasında fərq varmı?
- Qohumbazlıq və ya yerlibazlıq əsasında vəzifəyə təyinat korrupsiyadırmı?
- Biznesdə məmur himayədarlığı korrupsiyadırmı?
- "Yuxarıların" və "aşağıların" korrupsiyası arasında fərqlər nədən ibarətdir?
- Xarici şirkət tərəfindən məmur övladının təhsil xərclərinin ödənilməsi korrupsiyadırmı?
- Korr upsiya biznesin inkişafına yardım edirmi?
- Seçkilərin saxtalaşdırılması korrupsiyadırmı?
- 

**Korrupsiya ile mübarizə**

- Korrupsiya milli mi fenomendir?
- Korrupsiyaya bəraət qazandırmaq mümkündürmü?
- Korrupsiyanı məhv etmək mümkün deyilsə bəlkə onunla mübarizəyə dəyməz?
- Sərt cəza tədbirləri ilə korrupsiyanı məhv etmək mümkündürmü?
- Məmur maaşlarının qaldırılması ilə korrupsiyanı ciddi azalmaq olarmı?
- Yalnız dövlət orqanları mı korrupsiya ilə mübarizə etməlidirlər?
- Korrupsia ilə mübarizədə hökumətin əsas vəzifələri nədən ibarətdir?
- Korrupsia ilə mübarizədə vətəndaş cəmiyyətinin vəzifələri nədən ibarətdir?
- Korrupsiya ilə mübarizədə dini dəyərlərə arxalanmaq məqsədə uyğundurmu?
- Məhkəmə hakimiyyətinin müstəqilliyi korrupsiya ilə mübarizədə nə dərəcədə vacibdir?

**Korrupsiyanın səviyyəsi və əhatəsi**

- Korrupsiyanın səviyyəsi ölkədəki iqtisadi inkişafın səviyyəsindən asılıdırmı?
- Korrupsiyanın səviyyəsi ölkədəki demokratiyanın səviyyəsindən asılıdırmı?
- Təhsil sistemində korrupsiya hallarını azaltmaq mümkündürmü?
- Siyasi partiyalarda və ictimai təşkilatlarda korrupsiya mümkündürmü?

## KORRUPSİYANIN İQTİSADİ DƏYƏRİ

**Korrupsiyanın mənfi nəticələri hansı sahələrdə müşahidə edilir?**

- Dövlət alqı-satqı əməliyyatları zamanı məmurun rüşvət alması sosial situasiyaya hansı yolla təsir edir?
- Qohumbazlıq və yerlibazlıq əsasında vəzifə təyinatları ümumiqtisadi vəziyyətə necə təsir edir?

**Kolgə iqtisadiyyatı**

- Kölgə iqtisadiyyatının mənfi nəticələri nədən ibarətdir?
- Korrupsiya qeyri-ədalətli rəqabətə gətirib çıxarırmı?

**Qeyri-ədalətli rəqabət**

- Biznesdəki qeyri-ədalətli rəqabətdən vətandaş niyə əzab çəkir?
- Qeyri-ədalətli rəqabət kiçik və orta sahibkarlığın inkişafını zəiflədə bilərmi?
- Korrupsia dövlət büdcəsi gəlirlərinin azalmasına gətirib çıxara bilərmi?
- Dövlət büdcəsində xərclər korrupsia nəticəsində necə arta bilər?
- Korrupsiya qiymətlərin artması mı deməkdir?
- Korrupsiya xarici sərmayə yatırımlarını azalda bilərmi?

**Korrupsia ilə mübarizə**

- Hansı dövlət və ictimai institutlar korrupsia ilə mübarizə aparmalıdırlar?
- Özəl şirkətlərin daxilində korrupsia ola bilərmi?
- Özəl şirkətlərdə korrupsianı necə azaltmaq olar?

### KORRUPSİYA QARŞI MÜBARİZƏNİN ETİK ASPEKTLƏRİ

**Etika və əxlaq anlayışı**

- Hərəkətin düzgün və yanlış olmasına dair mühakiməni biz necə çıxardırıq?
- Əxlaqın tərifini verin.
- Əxlaq normalarına nümunələr göstərin.

**Qanun və etika**

- Etika ilə qanun arasında fərq nədən ibarətdir?
- Etik normalara riayət etmək könüllü ya məcbüridir?
- Bizim ölkəmizdə insanlar qanunlara ya etik normalara daha çox riayət edirlər?
- Qanunla əxlaq arasında ziddiyyətlərə nümunələr gətirin.
- Bu gün Azərbaycanda ictimai rəy korrupsiyaya münasibətdə hansı mövqedə dayanır? Bu rəyi dəyişmək üçün nə etmək lazımdır?

**Əxlaq və mentalitet**

- Azərbaycan mədəniyyətində yerlibazlığ və qohumbazlığ anlayışı.
- Doğrudandamı rüşvətxorluq Azərbaycan xalqının mentaliteti qırılmaz tellərlə bağlıdır?

**Əxlaq və gerçəklik**

- Biz ailəsinin ac qalmaması üçün rüşvət alan dövlət məmurunu mühakimə edə bilərikmi?
- İş təkcə əmək haqqındadırmı?

**İqtisadiyyatın və etikanın «boz» zonası**

- Etikanın «qara», «ağ» və «boz» zonaları hansılardır?
- Etikanın «boz» zonasının məhdudlaşdırılması üçün Azərbaycan biznesi nə edə bilər?

**İslam korrupsiya xaqqında nə deyir?**

- Azərbaycandakı cəmiyyat islam prinsiplərini istifadə etməlidirmi?
- İslamın korrupsiya münasibəti necədir.

**Davranış/Etika kodeksləri**

- Davranış/Etika məcəlləsi nədir?
- Bu qün Azərbayana Etika məcəllələri lazımdırmı?

## KORRUPSİYA İLƏ MÜBARİZƏ TƏDBİRLƏRİ

**Təşkilati və qabaqlayıcı tədbirlər**

- Vəzifəli şəxslər qərarları ancaq ictimai maraqları nəzərə almaqla qəbul edirlərmi?
- Qanunvericilikdə vəzifəli şəxslərin ayrı-ayrı şəxslərdən və ya təşkilatlardan onların peşə borclarını yerinə yetirmələrinə təsir edə biləcək maliyyə və ya başqa asılılığa düşməsinə şərait yaradacaq hansı normalar var?
- Vəzifəli şəxslər qəbul etdikləri qərarlara və hərəkətlərinə görə hesabat daşıyırlarmı?
- Vəzifəli şəxslərin qərarlar və fəaliyyəti cəmiyyət üçün açıqdırmı?

**Məhkəmə və hüquq-mühafizə orqanları**

- Hakimlərin müstəqilliyinin qanunvericilik təminatları nə dərəcədə yetərlidir?
- Hakimlərin müstəqliyyinin təminatı üçün hansı tədbirlər görülməlidir?
- Hakimlərin təyinatı ilə bağlı normalar və praktika bu korpusun peşəkarlardan formalaşdırılmasına və hakim seçkiləri zamanı subyektiv mülahizələr üçün əl yeri qoyurmu?
- Hökumət üzvləri baş prokurorluq xidmətinin müstəqilliyinin vacibliyini başa düşürlərmi?
- Baş prokurorun səlahiyyətləri, funksiyaları və vəzifələrini dəqiq tənzimləyən qanunvericilik varmı? Belə bir qanun lazımdırmı?
- İctimaiyyət prokurorluğun fəaliyyəti barədə məlumatlıdırmı?
- Müstəqil prokuror institutuna ehtiyac varmı? O, nəyi isə yaxşılığa doğru dəyişə bilərmi?
- Dövlət məmurlarının əmək haqlarının artırılması korrupsiiyanı aradan qaldırarmı?

**Qanunvericilik tədbirləri**

- Qanunvericilik birmənalı və aydındırmı? Qanunvericilikdə korrupsiya üçün şərait yaradan normaların aradan qaldırılması üçün nə etmək lazımdır?
- Cinayət qanunvericiliyi müasir tələblərə cavab verirmi? Burada ən pis korrupsiya növləri haqqında müddəalar varmı? Potensial korrupsiyalaşmış məmurların cəzalandırılması üçün kifayət qədər tədbir nəzərdə tutulurmu?
- Mövcud qanunlar korrupsiyalaşmış məmurların qeyri-qanuni yolla mülkiyyət əldə etməsi ilə mübarizə üçün kifayətdirmi?

- Bütün məmurlar cinayət qanunu qarşısında bərabərdirlərmi yaxud onların bir qismi toxunulmazlıq mövqeyinə malikdir? İctimaiyyət bunu nə dərəcədə hiss edir?
- Vətəndaşların və özəl bölmənin hüquqlarının müdafiəsi kifayət qədər təmin olunubmu?

## KORRUPSİYA İLƏ MÜBARİZƏNİN HÜQUQİ ASPEKTLƏRİ

### Korrupsiya ilə mübarizədə milli qanunvericiliyin rolu

- Korrupsiyaya qarşı mübarizə üçün nə etmək gərəkdir?
- Rüşvətxorları «güllələməklə» iş bitirmi?
- Azərbaycanda bu sahədə hansı qanunvericilik aktları qəbul olunub?

### «Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanunu

- Korrupsiya nədir?
- Hər cür hədiyyə (hörmət) rüşvətdirmi?
- «Korrupsiyaçı»lar kimlərdir?
- «Vəzifəli şəxslər»ə kimlər aiddir?
- «Vəzifəli şəxslər»ə nələr qadağan olunur?
- Yaxın qohumlar niyə birgə işləyə bilməzlər?
- «Korrupsiya hüquqpozmaları» və /və ya/ «korrupsiyaya şərait yaradan hüquqpozmalar»?
- Korrupsiyaçının «cəzası» nədir?

### «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanunu

- Dövlət qulluğu nədir?
- Dövlət qulluqçusunun vəzifələri hansılardır?
- Dövlət qulluqçusuna nələr qadağan olunur?
- Dövlət qulluqçusunun etik standartlara ehtiyacı varmı?
- Korrupsiyaçı-qulluqçunun «cəzası» nədir?

### Korrupsiyaya qarşı mübarizə baxımından qanunvericiliyin monitorinqi

- Hansı qanunlarda «korrupsiyaya yer var»?
- Hansı qanunlar korrupsiyaya qarşı mübarizə aparmaq istəyir?
- Hansı qanunların «mübariz normalara» ehtiyacı var?

### Korrupsiyaya qarşı mübarizə ilə bağlı beynəlxalq konvensiyaların milli qanunvericiliyə implementasiyası

- İmplementasiya nədir?
- İmplementasiya: Konvensiyanın ratifikasiyasından qabaq və sonra.
- Konvensiya antikorrupsiya qanunvericiliyinə nə verəcək?

## KORRUPSİYAYA QARŞI KİM VƏ NECƏ MÜBARİZƏ APARMALIDIR?

### Korrupsiya ilə kim mübarizə aparmalıdır?

- Azərbaycan parlamenti ölkədəki korrupsiya ilə mübarizə aparmağa qabildirmi?
- Demokratiya, yoxsa sərt recim korrupsiyanı cilovlamağa qadirdir?
- Azərbaycanın bugünkü parlamenti ijra hakimiyyətinə nəzarət etmək, ondan hesabat tələb etmək istəyində və iqtidarındadırmı? Bunu o nejə həyata keçirir?
- Parlamentin icra hakimiyyəti qarşısında gücsüzlüyünün və korrupsiya hallarını çözələmək, hökumətdən hesabat tələb etmək istəməməsinin səbəbi nədədir?
- Azərbaycanda seçki prosesində korrupsiya özünü nədə göstərdi?

- Azərbaycanda korrupsiyadan azad və ona qarşı durmaq gücündə olan parlament formalaşdırmaq üçün nə lazımdır?

**Hesablama palatası haqqında nə bilirsiniz?**

- Hesablama Palatası gerçəkdən müstəqil işləyə bilirmi? İcra hakimiyyətində büdjə vəsaitlərinin yığılmasına və onun düzgün xərjlənməsinə nəzarət etmək güjündədirmi? Bu qurumun apardığı yoxlamalar və aşkar etdiyi korrupsiya faktları barədə eşitmisinizmi? Onun işini səmərəli etməkdən ötrü sizcə nələr çatışmır?
- Korrupsiyanın ən təsirli cilovlayıjılarından biri – məhkəmə hakimiyyəti. Azərbaycanda bu nə dərəcədə real səslənir?
- Məhkəmə sistemimizi ədalətli mühakiməni həyata keçirməyə qabil samaq olarmı? Nə üçün məhkəmə hakimiyyətimizi icra hakimiyyətinin asılılığında hesab edirlər?
- Ötən il keçirilən hakim təyinatları jəmiyyətdə məhkəmə sisteminin müstəqilliyinə və ədalət mühakiməsi keçirmək qabiliyyətinə inam doğurdumu?
- Məhkəmə təyinatının qanunsuzluqlarla və bəzən korrupsiya halları ilə müşayət olunması barədə gəzən söz-söhbətləri doğuran nə idi? Azərbaycanda bundan yaxşı məhkəmə sistemi qurmaq mümkün idimi?

**Bizə necə ombudsmen lazımdır?**

- Azərbaycanda ombudsmen institutunun yaradılması bu gün insan hüquqları sahəsində və korrupsiyanın qarşısının alınması sahəsindəki vəziyyətə bir yenilik veribmi? Yoxsa bu institut ümummilli vəsaitləri yeyən yeni bir orqandan başqa heç nə deyil?
- Ombudsmenin ijra hakimiyyətindən və siyasi qüvvələrdən nə dərəjədə müstəqildir? Ombudsianın iş qabiliyyətinə malik ola bilməsi hansı amillərdən asılıdır?

**İnformasiya azadlığımız nə səviyyədədir?**

- Azərbaycan xalqının hökumət və parlament haqqında, digər ictimai əhəmiyyətli məsələlər barədə məlumat almaq imkanları nə dərəcədədir? Azərbaycanın icra hakimiyyəti öz fəaliyyəti barədə informasiyaları, həm də onun xeyrinə ola bilməyən informasiyaları xalqa açıqlayırmı, yoxsa onu ört-bastır etməklə məşğuldur?
- Mövcud qanunverijilik belə informasiyaları almaqda vətəndaşlara nə dərəcədə kömək edə bilir?
- Ölkədəki korrupsiya hallarını aləmə faş etməyə qadir azad mətbuat: xoş xəyal, yoxsa gerçəklik?
- Azərbaycanda hər hansı informasiyanı almağa və cəmiyyətə ötürməyə qabil olan müstəqil KİV-lərin fəaliyyəti və inkişafı üçün hökumət şərait yaradırmı?
- Məhkəmələr nə dərəcədə azad mətbuatın «dostudur»? Məhkəmələr məmurların, yoxsa azad mətbuatın «tərəfindədirlər»?
- Müstəqil və müdrik məhkəmələrimiz olmadan mətbuat azadlığımızın təmin olunacağına nə dərəcədə ümid edə bilərik?
- Sizcə azad mətbuat artmaqda, yoxsa azalmaqdadır?
- Hansı amillər azad mətbuatı zəiflədir?
- Mətbuat korrupsiyadan azaddırmı?